# Daxili çılğınlığın gözəlliyi

*Aktyor təbiətinə görə Zərnigar Ağakişiyeva xarakterik obrazlar oynamağa üstünlük verir. O, heç vaxt qəhrəman sevgililəri oynamaq iddiasında olmayıb. Diqqət yetirin, aktrisa Akademik teatra, orta yaşlı xanımı oynamağa dəvət alıb. İkinci rolu, "Şöhrət və ya unudulan adam" (Nazim Hikmət) tamaşasındakı Qadın obrazı da yaş baxımından Zərnigar xanımdan böyükdür. Onun Akademik teatrda üçüncü rolu Aleksandr Vampilovun "Böyük oğul" komediyası əsasında Tofiq Kazımovun quruluş verdiyi "Övlad" tamaşasında Makarskaya obrazı oldu. Tofiq Kazımov tamaşanı qısa müddətə hazırladı və premyera 1974-cü il dekabr ayının 28-də oynanıldı*



Teatr 1975-ci il mart ayının 22-də Maksim Qorkinin "Meşşanlar" dramını tamaşaçılara təqdim etdi. Əsərin tərcüməçisi və quruluşçu rejissoru Mehdi Məmmədov idi. Bu tamaşa Mehdi Məmmədovun Akademik teatra qayıdışından sonra dördüncü quruluşu idi. Əvvəl o, Lev Tolstoyun "Canlı meyit", Hüseyn Cavidin "Xəyyam", Səməd Vurğunun "İnsan" dramlarına səhnə quruluşu vermişdi. "İnsan" və bunun ardınca da "Meşşanlar" tamaşası oynanıldı və təəssüflər ki, bunlar əvvəlki iki tamaşa kimi monumental və möhtəşəm, fəlsəfi-romantik vüsətli alınmadı. Bu da bir başqa məsələdir, mövzumuzdan kənar olduğu üçün üzərində dayanmaq fikrim yoxdur.

Zərnigar Ağakişiyeva "Meşşanlar"da da bir növ yaşına uyğun Tatyana rolunda çıxış etdi. Obrazın digər ifaçısı artıq teatr ictima yətində kifayət qədər tanınan və sevilən aktrisa Amaliya Pənaho idi. Bu dəfə onun oyundaşları yeni idi, çünki Mehdi Məmmədov öz aktyorları vardı. Tamaşada çox sanballı aktyorlar oynayırdı. Əsas rolları Həsən Turabov (Nil), Sofiya Bəsirzadə (Akulina İvano na), İsmayıl Osmanlı (Perçixin), Mehdi Məmmədov və Məmməd Şeyxzamanov (Terenti Teterov), Əminə Nağıyeva (Stepanida), Şə qə Məmmədova (Yelena Nikolayevna), Səməndər Rzayev (Bess menov) ifa edirdilər.

Makarskaya və Tatyana rollarında səhnə cazibədarlığı, çevikl ifadəli oyun manerası ilə diqqəti cəlb edən Zərnigar Ağakişiyeva elə həmin il, yəni 1975-ci ildə "Vaqif" mənzum dramının bərpa ta maşasında Xuraman rolunu verdilər. İlk tamaşası 1938-ci il oktya ayının 5-də göstərilmiş tamaşa bərpa edilərək noyabr ayının 15-də teatrsevərlərə təqdim edildi. Zərnigar Ağakişiyeva öz Xuramanını Vaqiflə oynadı: İsmayıl Dağıstanlı və Səməndər Rzayev.

Qısa bir müddətdə, yəni Akademik Milli Dram Teatrına (başq sözlə, böyük səhnəyə) gəldiyi təxminən il yarımda Zərnigar Ağak şiyeva həm yaş, həm xarakter, həm milliyyət, həm sosial təbəq həm zaman-məkan xronotopu baxımından fərqli personajlarda ç xış edib. "Çıxış edib" əslində ümumi sözdür, aktrisa həmin rollard yüksək sənətkarlıq nümunəsi sərgiləyib. O, Leyla xanımla Amaliy xanımın yüksək bədii ifadə vasitələri, güclü aktyor ifası, lirik-emo sional və dramatik-psixoloji dəyərlərlə möhür vurduqları Fəxrənd və Kəmalə rollarını yeni səpkidə, maraqlı oyun üslubunda tamaşa çılara sevdirə bildi.

**Bax, budur Zərnigar xanımın qısa müddətdə yiyələndiyi pe şəkarlıq vərdişləri!**

**Bax, budur Zərnigar xanımın bir aktrisa kimi cəsarəti, öz gü cünə, istedadına inamı!**

**Bax, budur Zərnigar xanımın səhnə məlahətinin cazibədarlı ğı, emosionallığı, dramatizmi, psixoloji dözümünün potensialı**

**Bax, budur Zərnigar xanımın səhnəyə olan məhəbbəti nin güclü istedada, coşqun enerjiyə, hərarətli sənət sevgisinə əsaslanan reallığı!**



C.Cabbarlı. "Sevil".
Zərnigar Ağakişiyeva – Dilbər



Zərnigar Ağakişiyeva dəfələrlə etiraf edib ki, o, bir aktrisa kimi mürəkkəb xarakterli, mənfili-müsbətli, insani münasibətləri təzadlı olan, intriqaya, ziddiyyətlər yaratmağa meyil göstərən dramatik personajları oynamağa üstünlük verir. Çünki aktrisaya tipik səciyyələrdən istifadə edərək, real ictimai-sosial, məişət personajlarını canlandırmaq yaradıcılığının sirlərini, daxili aktyorluq imkanlarını büruzə vermək daha əlverişlidir. Bir anlığa onun televiziya tamaşalarında ifa etdiyi Mirandalina ("Mehmanxana sahibəsi", Karlo Qoldoni), Qaynana ("Kökdən düşmüş pianino", Mövlud Süleymanlı), Akademik teatrda oynadığı Pəri xanım ("Lənəkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Seliya Piçem ("Üç quruşluq opera", Bertold Brext və Kurt Vayl), Amaliya ("Yad adam", Leonqard Frank) rollarını xatırlamaq kifayətdir ki, söylədiyim fikirlərin həqiqiliyi bir daha təsdiqlənsin.

Ancaq və di gəl ki, aktrisa eyni zamanda lirik ana obrazlarını xüsusi şövqlə, xüsusi sənət yanğısıyla, xüsusi səmimiyyət lətafətilə, xüsusi kövrək lirizmlə, xüsusi həzinliklə oynayır. Bu baxımdan Anarın "Ötən ilin son gecəsi" lirik-psixoloji dramının televiziya tamaşasında ifa etdiyi Həmidə obrazı Zərnigar xanımın yaradıcılığında parlaq sənət qələbəsi kimi dəyərlidir. Kövrək lirizmlə, həzin dramatizmlə cilalanımış obrazlar içərisində İlyas Əfəndiyevin "Sarıköynəklə Valehin nağılı" və Altay Məmmədovun "Kişilər" televiziya tamaşalarında, Cəmil Əlibəyovun "Gülüstanda qətl" səhnə əsərində Ceyran, Rəxşəndə və Bəyim nənə surətlərinin bədii cazibə gücü, emosional-psixoloji dolğunluğu daha artıqdır.

Zərnigar Ağakişiyevanın elə obrazları var ki, hadisələrin psixoloji gedişatına uyğun olaraq dramatizmdən lirizmə, lirizmdən kövrək psixologizmə keçidlər gözlənilməz vəziyyətlərdə baş verir. Obrazın daxili ritminin dəyişməsi birbaşa hadisələrin mahiyyəti ilə əlaqələndirilir. "Dantenin yubileyi" bədii televiziya filmindəki Xədicə rolunda aktrisa öz obrazının hərəkət dinamikasını və psixoloji sürət-ritmini bir neçə dəfə dəyişməli olur. Həmin dəyişmədə Xədicənin insani duyğularının yeni-yeni cəhətləri açıldıqca tamaşaçılar aktrisanın ifadə palitrasının rəngarəngliyinə heyran qalırlar. Bir də ki, Zərnigar



Qarsia Lorka. "Dişi canavar"
Z.Ağakişiyeva – Bernarda

Rolun taleyini öz içindən keçirtməklə, qəlbinə, ruhuna doğmalaşdırmaqla sanki tamaşaçıların duyğu və düşüncələrini də həmin ovqata kökləyir. Aktrisa əslində obrazı olduğu və özünün dərk etdiyi tərzdə təqdim etməklə onun xarakterinə "açıq" münasibət bildirmir. Bununla da süni publisistikanın qarşısına qətiyyətlə sədd çəkir və təcrübəli səhnə xadimi kimi tamaşaçılara xarakter - mürəkkəb səciyyəli, mənfili-müsbətli insan obrazı təqdim edir. Zərnigar xanım obrazı, necə deyərlər, öz içindən keçirməklə özü də hadisələrin baş verdiyi zamanın və məkanın içindən keçib səhnəyə çıxır. Bununla da öz səhnə obrazının reallığına möhkəm təməl hazırlayır.

Zərnigar Ağakişiyeva yaradıcılıq ruhuna və fərdi üslub keyfiyyətlərinə görə realist aktyor məktəbinin estetik səciyyələrinə və poetika xüsusiyyətlərinə daha yaxındır. Karnaval estetikalı şən komediya rollarını və tipik cəhətləri ilə diqqəti çəkən dramatik rollarda daha şövqlə oynayır. Daxili ehtirasını və psixoloji tapıntılarını ifa etdiyi obrazın səhnə təfsirinə uyğun tərzdə məharətlə nizamlaya bilir.

Həyatda sakit təbiətli, az danışıb qulaq asmağa üstünlük verən insandır. Hətta bu xarakteri bəzən onu tanımayanlarda aktrisa barədə yanlış təəssürat oyadır. Lakin Zərnigar xanım səhnədə çox diqqətlidir, oyundaşları ilə asanlıqla isti ünsiyyət qurur. Çəkiliş meydançasında, məkandan asılı olmayaraq, kamera qarşısında çox həssasdır. Obyektivi dərindən duyur və buna görə də oynadığı obrazın iri planda da lentə alınmasında rejissorları əziyyətə salmır. Ümumi, orta və iri planların çəkilişlərində hərəkət plastikasına qəribə möhtəşəmlik verir, etdiyi bütün hərəkətlər psixoloji məntiqə əsaslanır, personajın iç dünaysının gizli çalarlarını qabarıq verməyə əsaslanır.

Xarakterindən asılı olmayaraq, oynadığı personajın bədii səciyyələrinə ehtiramla yanaşır və buna görə də onun səhnə görünüşünü səlist, dürüst, mənalı təqdim etməkdə çətinliklə üzləşsə də, yanılmır, səhvə yol vermir. Aktrisa hadisələrin baş verdiyi zamanı öz daxilində yaşatmaqla obraza çağdaşlıq ruhu aşılayır, dövrün koloritli ictimai-sosial ovqatını, fəlsəfi-psixoloji, etik-estetik, mənəvi-əxlaqi dəyərlərini hissiyyatın zərifliyi ilə qəhrəmanının varlığına hopdurur.

* * *

Zərnigar Ağakişiyevanın çəkildiyi əsas filmlər: "Mezozoy əhvalatı" (Satıcı), "Dantenin yubileyi" (Xədicə), "Yol əhvalatı" (Ədilə), "Köhnə bərə" (Eldarın anası), "Qəm pəncərəsi" (Şərəf), "Özgə ömür" (Səkinə xanım), "Yaramaz" (Qayınana), "Fransız" (Zərnigar), "Təhminə" (Zivər), "Qara volqa" (Salomonovna), "Yarasa" (Qadın), "Hər şey yaxşılığa doğru" (Ana), "Özgə vaxt" (Tibb bacısı), "Nə gözəldir bu dünya" (Həkim), "Yuxu" (Xurşud xanım).

Teatrla müqayisədə film çəkməyin, kino sənətinin öz estetikası, öz ifa prinsipləri var. Teatrda tamaşaçı hansısa hadisəni əvvəldən axıradək izləyir, düyün nöqtəsinin başlanğıcını, konfliktin inkişaf xəttini, intriqanın zirvə nöqtəsini, dramaturji düyünlərin açılmasını və nəhayət finalı ardıcıllıqla izləyir. Aktyorlar həmişə, onuncu... yüzüncü... mininci... dəfə də tamaşanı eyni ardıcıllıqla oynayırlar. Kinoda isə bəzən final əvvəldə, başlanğıc ortada, dramatik intriqa səhnələri axırda çəkilir. Yaxud, qəhrəmanın ölümü çəkiliş günündə havanın durumu, digər yaradıcılıq və texniki məsələləri ilə bağlı əvvəldə, onun digər epizodları sonra lentə alına bilər. Bu, kinonun yazılmamış qanunudur. Ona görə də kinoya çəkilən sənətkar mütləq obrazı tam mənimsəməli, onun psixoloji dinamikasını dürüst müəyyənləşdirməlidir ki, çəkilişlər ayrı-ayrı vaxtlarda olsa da, tamaşaçı filmə baxanda personajın dramaturji inkişaf xəttində qırıqlıq, uyarsızlıq, rabitəsizlik hiss etməsin.

Belə çətinliklərə və sənət özünəməxsusluqlarına baxmayaraq, Zərnigar Ağakişiyeva heç vaxt ekranda (eləcə də səhnədə) təsadüfi nailiyyət qazanmayıb. Onun uğurlu və yaxud nisbətən zəif ekran personajları əsl sənətkarlıq axtarışlarının bədii məhsuludur. Təbii ki, bu qalereyada parlaq və boz rənglər, isti və soyuq çalarlar, çılğın və süst emosiyalar, ləng və çevik hərəkət plastikası paralel cazibədarlıqdadır.

İlham Rəhimli



A.Vampilov. "Övlad"
Z.Ağakişiyeva – Makarskaya
R.Məlikov – Busigin



B.Brext. "Üç quruşluq opera"
Z.Ağakişiyeva – Seliya Piçem